

Fikrət SADIQ

**VƏTƏN MARŞI**

Bunu bilmək çağıdı,
Dünya eşitsin, bilsin:
Xankəndi türk torpağı,
Şuşa türk torpağıdı.

Bunu bilmək çağıdı:
Bu dağların dalında
O itən, o görünən,
Dumanlığa bürünən
Torpaqlar bizimkidi.

Ağaclar bizimkidi,
Yarpaqlar bizimkidi.
O çaylar, dərələr, düzlər,
O dağlar bizimkidi.

Bunu bilmək çağıdı:
Zəngilan türk torpağı,
Kəlbəcər türk torpağı,
Laçın türk torpağıdı.

Bunu bilmək çağıdı:
Bu, din davası deyil,
Ana yurd davasdı.
Bizi yaşadan hava
Vətənin havasıdı.

Bunu bilmək çağıdı:
İrəvan türk torpağı,
Zəngəzur türk torpağı,
Göyçə türk torpağıdı.

Millətin gözündəki
Pərdəni cırıb atmaq,
Millətin qəlbindəki
Pası silmək çağıdı.

Bunu bilmək çağıdı:
Günün də o günüdü,
Vaxtın da o vaxtıdı.

Nə ağlayıb-sıtqamaq,
Nə də gülmək çağıdı.
Daha qeyrətə gəlmək,
Kara gəlmək çağıdı.

Bunu bilmək çağıdı:
O doğma torpaqlara
Həsrət yaşamaqdansa,
Ellik ölmək çağıdı.

**20 yanvar 2002**